http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 02 (1599) 31 yanvar 2015 - ci il Qiymətì 40 qəpik

# «Tibb ocaqlarının, idman qurğularının, xüsusilə uşaq bağçalarının tikintisi son illərdə Azərbaycanda geniş vüsət almışdır»

**Yanvarın 27-də Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib.**
**Dövlət başçısı İlham Əliyev konfransda bir çox məqamlara toxunub:**



❍ Prioritet xarakter daşıyan bütün layihələr icra ediləcək, o cümlədən infrastruktur layihələri, sosial layihələr. Bu il məktəblərin tikintisi və təmiri nəzərdə tutulur. Tibb ocaqlarının, idman qurğularının, xüsusilə uşaq bağçalarının tikintisi son illərdə Azərbaycanda geniş vüsət almışdır. Bu proses davam etdirilməlidir. Çünki işsizliyin aradan qaldırılması nəticəsində indi ailədə hər iki valideyn işlə təmin olunur. Belə olan halda uşaq bağçalarının sayının artırılmasına çox böyük ehtiyac var. Yəni, bu məsələlər bir-biri ilə görürsünüz, nə qədər bağlıdır. İqtisadi inkişaf, iş yerlərinin yaradılması, işsizliyin aradan qaldırılması diktə edir ki, bu məsələ də öz həllini tapsın. Eyni zamanda, iqtisadi inkişaf və müsbət demoqrafik vəziyyət diktə edir ki, iş yerlərinin yaradılmasına diqqət daim yüksək səviyyədə olmalıdır. Çünki Azərbaycan üçün bu, daimi prosesdir. Bizdə demoqrafik vəziyyət müsbətdir, əhali artır, artıq əhalimiz 10 milyona yaxınlaşır. Ona görə hər il biz on minlərlə yeni iş yerlərini yaratmalıyıq ki, işsizlik aşağı səviyyədə olsun.

❍ Ölkəmizin uğurlu inkişafı üçün vətəndaş-məmur münasibətləri mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə də nümunəvi ölkə olmalıdır. Məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir. Dəfələrlə demişəm ki, mən birinci xidmətçiyəm. Xalqın birinci xidmətçisi Prezident olmalıdır, çünki xalq bizə inanır, bizə bu missiyanı aparmağı həvalə edib, tapşırıb. Biz bütün məmurlar da bu yüksək etimadı doğrultmalıyıq. Məmurlar, dövlət qurumlarının nümayəndələri xalqla bir yerdə olmalıdırlar, onların qayğıları ilə yaşamalıdırlar, kobudluğa, yekəxanalığa yol verilməməlidir. Bəzi hallarda yekəxanalıq müşahidə olunur, bəzi hallarda məmurlar özlərini çox təkəbbürlü aparırlar. Buna yol vermək olmaz. Siyasi mədəniyyət olmalıdır və insanlara hörmətlə yanaşmaq lazımdır.

## BU SAYIMIZDA





ATU-da AVRASİYA UROONKOLOJİ CƏMİYYƏTİN VI BEYNƏLXALQ KONQRESİ KEÇİRİLİB 4

20 Yanvar ŞƏHİDLƏRİNİN ANIM MƏRASİMİ 3



Uğurlu Beynəlxalq simpozium 7




BÖYÜK ELMİ ŞURADA 2



Tibbi Şuranın genişləndirilmiş toplantısı 6

# BÖYÜK ELMİ ŞURADA

**Yanvarın 30-da Böyük Elmi Şuranın növbəti yığıncağı keçirildi. Böyük Elmi Şuranın 2015-ci ildə ilk yığıncağını açan Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov əvvəlcə I mamalıq və ginekologiya kafedrasının professoru Nigar xanım Kamilovanı yubileyi münasibətilə təbrik etdi. Yubilyar xanımın universitetdəki fəaliyyətini yüksək qiymətləndirərək onun rəhbərliyi ilə yerli və xarici qrantların qazanıldığını xüsusi qabartdı. Bundan sonra iclasın gündəliyini diqqətə çatdıraraq "Tibb Universitetində 2014/2015-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü tədris işləri üzrə prorektor, professor Sabir Əliyevə verdi.**

Azərbaycanda təhsilin inkişafına yönəlmiş kompleks islahatlar, qabaqcıl ideyaların cəmiyyətimizin inkişafına müsbət təsir göstərdiyini bildirən S.Əliyev son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsilin inkişafı istiqamətində çoxsaylı uğurlara imza atıldığını vurğuladı. Qeyd etdi ki, ölkə başçısının «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə milli strategiyanın təsdiq edilməsi barədə» Sərəncamına müvafiq olaraq təhsil sferasında, o cümlədən ali təhsil müəssisələrində də geniş miqyaslı tədbirlər həyata keçirilir, tədris proqramına müəyyən dəyişikliklər edilərək təlim aparılır.







Cari tədris ilinin payız semestrinin imtahan sessiyasının obyektivlik, aşkarlıq və şəffaf şəkildə aparılması məqsədilə professor-müəllim heyətinin tələbələrlə, universitetin rektoru akademik Ə.Əmiraslanovun kafedra müdirləri və bütün qrupların nümayəndələri ilə yığıncaqlar keçirdiyini xatırladan prorektor bu yığıncaqlarda qarşıya çıxan həlli vacib bütün məsələlərin operativ qaydada həll edildiyini dedi: "Kredit sistemi ilə tədris aparan kafedra müdirləri ilə universitet rəhbərliyi görüşmüş, kompyuter vasitəsilə test üsulu ilə imtahan prosesinin təkmilləşdirilməsi məsələsi müzakirə olunmuşdur. Ayrı-ayrı fənlər üzrə test bankının yaradılması istiqamətində də xeyli iş görülmüşdür. Universitetin metodik və innovasiya şöbəsi tərəfindən test tərtibinə cəlb olunan professor-müəllim heyəti ilə seminarlar keçirilmiş, tərtib olunmuş testlərin texniki, metodiki ekspertizası aparılmış, fənlər üzrə ekspertlər müəyyən edilmiş və onların iştirakı ilə suallar sonuncu dəfə yoxlanılaraq test bankına yerləşdirilmişdir".

İmtahan-məqbul sessiyasının təsdiq edilmiş imtahan-məqbul şəbəkəsinə müvafiq olaraq ayrı-ayrı fakültə və kurslarda 29 dekabr 2014-cü il - 19 yanvar 2015-ci ildə aparıldığını söyləyən məruzəçi bildirdi ki, kredit sistemi ilə təhsil aparılan fakültələrin bütün kurslarında olduğu kimi, təhsil ənənəvi davam edən I, II müalicə-profilaktika, pediatriya, hərbi tibb fakültələrinin VI kurslarında və hərbi tibb məktəbində imtahan və məqbullar keçirilmişdir.

Sessiyanın ilkin nəticələrinə görə klassik qaydada imtahan verən tələbələr 303 (keçən il 2384) halda imtahanda iştirak etmiş, 4 - 1,3% halda (keçən il 322-13,5%) imtahana gəlməmişdir.

Klassik qaydada aparılan imtahanın nəticələrinə görə 67 (22,1%) halda «əla» (keçən il 18,1%); 158 (52,1%) halda "yaxşı" (keçən il 41,4%); 65 (21,4%) halda «kafi» (keçən il 20,5%) və nəhayət 9 (2,9%) halda «qeyri-kafi» (keçən il 5,4%) qeyd edilmişdir.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə klassik qaydada imtahan verənlər arasında «əla»lar 4% çoxalmış, akademik borcu qalan tələbələr 2,5% azalmışdır.

Sessiya müddətində VI kurs tələbələrini çıxmaq şərtilə, imtahan-məqbul verməli olanlar cərgəsində 5277 tələbədən 4482 nəfəri imtahanda iştirak etmişdir. 795 nəfər bu və ya digər səbəbdən qış imtahan sessiyasında iştirak etməmişdir ki, bu da tələbələrin 15%-dən çoxunu təşkil edir.

İmtahan-məqbul sessiyasını 4263 nəfər tələbə müvəffəqiyyətlə başa vurub. Onlardan 463 nəfər (10,3%) sessiyanı «əla» qiymətlərlə (keçən il 250 nəfər (4,6%)), 2259 nəfər (50,4%) «əla» və «yaxşı» qiymətlərlə, 1553 nəfər (34,6%) qarışıq qiymətlərlə bitiriblər. Sessiyanın nəticələrinə görə 219 nəfər (4,9%) tələbənin akademik borcu (F) qalıb. Onlardan 138 nəfərin yalnız 1 fəndən, 42 nəfərin 2 fəndən, 39 nəfərin 3 fəndən akademik borcu qalmışdır.

Universitet üzrə mütləq mənimsəmə göstəricisi 95,1% (keçən il 76,1%), keyfiyyət göstəricisi 60,7% (keçən il 42,2) olub.

Kurslar üzrə ümumi rəqəmlərə fikir versək, qeyd etmək lazımdır ki, ilkin mənimsəmə IV, V kurslarda yaxşıdır. Lakin eyni sözləri bütün kurslarda rast gəlinən keyfiyyət göstəricisi haqqında demək mümkün deyildir.

Qış imtahan sessiyasının nəticələrinə görə universitet üzrə əlaçılar 10,3% (keçən ilin müvafiq dövründə 4,6%), akademik borcu qalanlar isə 4,9% (7,7%) olmuşdur.

Test üsulu ilə kompyüterlərlə aparılan imtahanların kəmiyyət və xüsusən keyfiyyət göstəricilərinin xeyli yaxşılaşdığını diqqətə çatdıran natiq tələbələrin cari mənimsəmə zamanı topladığı ballarla imtahan balları arasındakı uyğunsuzluqlara da toxundu: "Çoxsaylı tələbələrimiz cari mənimsəmədə 7-10 balla imtahana buraxılırlar. Bu ballar tələbənin davamiyyət ballarıdır. Hətta bir neçə qrupda tələbələrin hamısı 7-10 balla imtahana buraxılmışlar. Sual olunur: bu qrupda tədris aparan müəllim 4 ay müddətində tələbəylə necə məşğul olmuşdur ki, ona bilik verə bilməmişdir. Bu tələbələri heç də qabiliyyətsiz adlandırmaq olmaz. Çünki onlar imtahan zamanı 40 bal (bəziləri hətta 50) civarında bal toplamışlar. Bu məsələlərə dekanlıqlar və kafedra rəhbərliyi çox ciddi yanaşmalı, hər bir hadisəni diqqətlə araşdırmalı, səhlənkar müəllimlər haqqında əməli tədbirlər görmək üçün universitet rəhbərliyi qarşısında məsələ qaldırmalıdırlar".

İstehsalat müşavirələrində yerli tələbələrlə yanaşı, xarici tələbələrin də irad və təkliflərinin dinlənildiyini deyən prorektor bildirdi ki, xarici tələbələr dekanlığı Türkiyə, İran, İraq və s. ölkələrin səfirliklərinin nümayəndələri ilə görüşlər zamanı onlara bu barədə şifahi və yazılı olaraq məlumatlar vermişdir.

S.Əliyev ölkə universitetləri arasında universitetimizin reytinqinin yüksək olmasından məmnunluğunu dilə gətirərək bunu universitetə qəbul üçün verilən ərizəlrin sayı və I kursa daxil olan yüksək ballı tələbələrin çoxluğu ilə əsaslandırdı: "Belə ki, öz qrupunda Prezident təqaüdçülərinin hamısı - 25 nəfəri, 600-dən çox bal toplayanların 368 nəfəri əlaçı kimi bizim universitetə daxil olmuşlar".

Şura üzvlərinin diqqətini bu kateqoriyadan olan tələbələrin nəticələrinə yönəldən məruzəçi 600-dən yuxarı bal toplayan 369 nəfərdən yalnız 14 nəfərin sessiyanı «əla» qiymətlərlə başa vurmasının təəssüf doğurduğunu və proqramları həddən çox yükləməyin tövsiyə olunmadığını dedi.

Çıxışının sonunda "2014/2015-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri bir daha göstərir ki, istər dekanlıqların, istərsə də kafedraların və professor-müəllim heyətinin bu sahədə görəcəyi işlər hələ çoxdur"-deyən prorektor universitet kollektivinin yeni semestrdə gənc nəslin tərbiyəsində və təhsilində əlindən gələni etməyə çalışacağına əminliyini bildirdi.

ATU-nun Tədris Terapevtik Klinikasının direktoru Surxay Musayev və kafedra müdirləri İsfəndiyar İsmayılov, Ədalət Həsənov, Məhbubə Vəliyeva, İbrahim Əhmədov tədrisdə müsbət dinamikanın aydın sezilməsindən, kredit sisteminin üstünlüklərindən söhbət açaraq ətraflı təhlilin və tənqidi qeydlərin yer aldığı hesabatı qənaətbəxş qiymətləndirdilər.

Ə.Əmiraslanov müzakirələrə yekun vuraraq imtahanların sayının çox olması və semestrin qısaldılması ilə əlaqədar xeyli problemin ortaya çıxdığına diqqət yönəltdi. Virtual Test Mərkəzinin həftənin şənbə və bazar günləri, bayram günləri də çalışaraq çətinliklərin öhdəsindən layiqincə gəldiyini vurğulayan rektor bildirdi ki, imtahanların gedişi bu qurumun böyük potensiala malik olduğunu göstərdi. Bir daha əmin olduq ki, nəzərdə tutduğumuz ikinci test mərkəzinin yaradılmasına ehtiyac yoxdur.

Semestrin müvəfəqiyyətlə yekunlaşmasına görə bu prosesdə iştirak edən dekan və dekan

(davamı səh. 5-də)

# 20 Yanvar ŞƏHİDLƏRİNİN ANIM MƏRASİMİ

**Azərbaycanda baş verən Qanlı Yanvar faciəsindən 25 il ötür. Bu müddət ərzində şəhid məzarları zamanın qan yaddaşına köçür, xalqımızın and yerinə çevrilərək ehtiramla yad olunur.**



Yanvarın 19-da Respublikamızın hər yerində olduğu kimi Azərbaycan Tibb Universitetində də 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Əvvəlcə universitet şəhərciyində şəhid tələbələrin xatirəsinə ucaldılmış abidənin açılışı oldu. Toplantı iştirakçıları xatirə abidəsini ziyarət edərək qarşısına tər çiçəklər düzdülər. Sonra tədbir Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasının konfrans zalında davam etdirildi. İlk öncə torpaqlarımızım bütövlüyü uğrunda canlarından keçən igid Vətən övladlarının ruhu bir dəqiqəlik sükutla yad edildi.




Sonra ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov 20 Yanvar faciəsinin dəhşətlərindən söhbət açaraq həmin gün Azərbaycan xalqının cəsarətli övladlarının göstərdiyi şücaətlərdən danışıb. O, ötən əsrin 90-cı ilində ölkəmizin müstəqilliyi, azadlığı uğrunda küçələrə çıxmış insanlığa sığmayan vəhşiliklərin törədildiyini, əliyalın insanlara ağır silahlardan atəş açıldığını, hətta qocalara, qadınlara, uşaqlara belə rəhm edilmədiyini xatırladıb: “O vaxt biz Moskvada idik. Mərkəzi televiziyada təxribat xarakterli məlumatlar yayır, baş vermiş faciənin miqyasını kiçiltməyə çalışırdılar. Azərbaycanla əlaqə yaratmaq mümkün deyildi. Ölkə daxilində də müəyyən qüvvələr düzgün informasiyanın dünya ictimaiyyətinə çatdırılmasına mane olurdular. Həmin günlərdə azadlıq mücadiləsinə qalxmış xalqın iradəsini qırıb böyük imperiyanı saxlamaq istəyirdilər. Amma xalqın iradəsi, mərdliyi sayəsində onlar bu planlarını reallaşdıra bilmədilər. Hətta qadınlarımız öz vətənlərini qorumaq üçün təpədən-dırnağa qədər silahlanmış ordunun qarşısına əliyalın çıxmışdılar. Odur ki, bu günü ağlamamalıyıq. Çünki 20 Yanvar bizim tariximizə faciə ilə yanaşı, həm də əsl igidlik, qəhrəmanlıq səhifəsi kimi daxil olub. Xalqımız öz qanı bahasına azadlığına qovuşub”.



Akademik Ə.Əmiraslanov tarixə ekskurs edərək həmin dövrdə sovet mediasının 20 Yanvarla bağlı yanlış məlumatlar yaydığını, baş verənlərin gizlədildiyini, çox az sayda itkinin olduğu haqda məlumatlar verdiyini dedi. Yalnız o dövrdə siyasi rəhbərlikdən kənarlaşdırılmış xalqımızın dahi oğlu, ümummilli lider Heydər Əliyevin həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək kəskin bəyanat verməsi və əsl günahkarların cəzalandırılmasını tələb etməsi nəticəsində həqiqəti əks etdirən informasiyalar bütün dünyaya çatdırıldı. Həmin mətbuat konfransında dünyanın nüfuzlu xəbər agentliklərinə bu faciənin səbəbləri haqqında düzgün məlumatlar verildi”.

Rektor Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışından sonra bu istiqamətdə gördüyü işlərdən, onun təşəbbüsü ilə ilk dəfə bu hadisəyə hüquqi- siyasi qiymət verildiyindən danışmış, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların ailə üzvlərinə kömək üçün ulu öndərin imzaladığı sənədlərin bu insanların xatirəsinə böyük ehtiram olduğunu bildirmişdir.

Ə.Əmiraslanov demişdir ki, ulu öndərin siyasi kursunu uğurla davam etdirən möhtərəm prezidentimiz cənab Ilham Əliyev Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçənlərin əziz xatirəsinin daim yad edilməsi, onların ailələrinin sosial rifah halının yüksəldilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə göstəriş vermiş, çox zəruri fərmanlar imzalamışdır.

Qanlı 20 Yanvarın Azərbaycan xalqının yaddaşında xüsusi yer tutduğunu vurğulayan Milli Məclisin üzvü, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət Həsənova o dövrdə baş verən bu tarixi hadisələrdən bəhs edərək Azərbaycan xalqının öz müstəqilliyi, azadlığı uğurunda mübarizəyə qalxdığını bildirib. O, ölkəmizə gələn xarici qonaqlarln şəhidlərimizin şərəfinə ucaldılmış abidənin önündəki məşəlin qarşısında baş əyməsini isə 20 Yanvar faciəsinə artıq beynəlxalq aləmin biganə qalmaması kimi qiymətləndirib. Ölümləri ilə qorxu hissini öldürən 20 Yanvar şəhidlərinin heç zaman unudulmayacağını, doğma Azərbaycanımızda və eləcə də dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən soydaşlarımızın qəlbində əbədi yaşayacaqlarını söyləyib.

Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Çərkəz Cəfərov və I daxili xəstəliklər və reanimatologiya kafedrasının müdiri, professor İsfəndiyar İsmayılov çıxışlarında qeyd etdilər ki, 1990- cı il yanvarın 19-dan 20- nə keçən gecə cinayətkar imperiya rəhbərliyi, başda Mixail Qorbaçov olmaqla Bakıda və Azərbaycanın digər rayonlarında dəhşətli qırğınlar törətmiş, dinc əhalini vəhşicəsinə qətlə yetirmişlər. Sovet ordusunun əsgər və zabitləri faşistlərdən də betər qəddarlıq nümayiş etdirərək əliyalın xalqa qanlı divan tutmuuş, bir gecənin içərisində küçə və meydanları insan qanı ilə boyamışlar. Natiqlər qeyd etdilər ki, ancaq imperiya bu qəddarlığı ilə də Azərbaycanın haqq səsini boğa bilmədi və şəhidlərimizin azadlıq, müstəqillik arzusu reallaşdı. Ulu Öndər Heydər Əliyevin zəngin idarəçilik qabiliyyəti, siyasi uzaqgörənliyi sayəsində müstəqilliyimiz daimi oldu. Onlar dedilər ki, o qanlı gecədə qətlə yetirilən günahsız insanların xatirəsini qədirbilən xalqımızın daim əziz tutduğunu, eyni zamanda öz ölkəsinin və xalqının azadlığı yolunda şəhid olanlarla qürur duyduqlarını söyləyiblər.

20 Yanvar faciəsində sağlamlığını itirən II qrup əlilin övladı, hazırda ATU-nun II müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Nicat Rzayev çıxışında atası ilə fəxr etdiyini, dövlətin onlara göstərdiyi qayğı və diqqətdən bəhs etdi. O, dedi: “Mən bu gün öz yaşıdlarım kimi çox xoşbəxtəm ki, müstəqil Azərbaycan dövlətinin azad vətəndaşıyıq. Biz gənc nəsil müstəqilliyimizin indən sonra da əbədi olması üçün üzərimizə düşən bütün vəzifəni yerinə yetirməliyik”.

Toplantını yekunlaşdıran akademik Ə.Əmiraslanov Azərbaycanın hər bir övladının bu hadisə haqqında saatlarla danışa biləcəyini qeyd edərək bir daha xatırladıb ki, həmin gün xalqımız qəhraman övladlarını itirdi. Lakin bu böyük itkilərə baxmayaraq bizim əsas təsellimiz qazandığımız müstəqil, azad Azərbaycan oldu. Şəhidlərimizin qanı bahasına və xalqımızın iradəsi, ulu öndərimizin istər xarici, istər daxili siyasəti nəticəsində ölkəmiz bu gün dünyanın inkişaf etmiş ölkələri arasında öz layiqli yerini tutur.

Toplantının sonunda 20 Yanvar hadisəsindən bəhs edən sənədli filim də nümayiş olunmuşdur.

**M.ƏLƏKBƏRLI**

**Ölkəmizin bütövlüyü uğrunda və 20 Yanvar hadisələri zamanı xalqımızın canlarından keçən oğulları arasında Azərbaycan Tibb Universitetinin də şəhid tələbələri var. Universitet rəhbərliyi onların əziz xatirəsinə ucaldılmış xatirə abidəsini əvvəlki yerindən daha münasib ünvana – universitet şəhərciyinə köçürmüşdür.**

**Xatirə kompleksini ziyarətə gələnlər bir anlıq dayanıb bu adları oxuyur:**



Məmmədov İlqar Qabil oğlu
İsmayılov Sərxan Bayandur oğlu
Hüseynov Ağası Rauf oğlu
Alıyev Hafiz İbrahim oğlu
Babayev Pərviz Rasim oğlu
Yusifov Etiraf Hidayət oğlu
Abdullayev Natiq Yaqub oğlu
İmanov Elçin Beybulla oğlu
Məmmədov Teymur Yəhya oğlu

Və onların qarşısında baş əyir, **Allah rəhmət eləsin deyirlər.**

# ATU-da AVRASİYA UROONKOLOJİ CƏMİYYƏTİN VI BEYNƏLXALQ KONQRESİ KEÇİRİLİB

**Türkiyə və Azərbaycan Səhiyyə nazirliklərinin, Milli Onkologiya Mərkəzinin və Azərbaycan Tibb Universitetinin birgə dəstəyi ilə Avrasiya Uroonkoloji Cəmiyyəti VI konqresinə yanvarın 30-da başlayıb.**



Azərbaycan, Türkiyə, Almaniya, Polşa, ABŞ, Fransa və digər ölkələrdən olan mütəxəssislərin iştirak etdiyi konqrens öz işini fevralın 1-dək davam etdirəcək. Konqresdə çıxışlar əsasən böyrək, sidik kisəsi, prostat, xayaların onkoloji xəstəliklərində yeni yanaşma protokolları, endoskopik, loporoskopik, transuretrol və robotik cərrahiyyənin yeni metodları və ən son nailiyyətləri mövzusunda olub. Açılış mərasimində Milli Məclisin deputatı, ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov müasir dünyada, o cümlədən ölkəmizdə tibb elminə və təhsilinə xüsusi önəm verildiyini, bu sahədə nəzərəçarpacaq uğurlar əldə olunduğunu qeyd edib. Bu konqresin Bakıda keçirilməsindən məmnunluq duyduğunu qeyd edən rektor bildirib ki, bu konqresdə iştirak edən xarici qonaqlar son illər Azərbaycanda keçirilən elmi konfranslar arasında xarici qonaqların sayının çoxluğuna görə seçilir. Akademikin sözlərinə görə, bu cür konqreslər Azərbaycan səhiyyəsində son illər əldə olunan nailiyyətləri paylaşmağa, həm də təcrübə mübadiləsi aparmağa imkan verir.

Əhliman müəllim konqresin əhəmiyyətindən danışaraq qeyd edib ki, məqsəd bu sahədə dünya tibbində əldə olunan yeniliklər, nailiyyətlər və uğurlarla iştirakçıları tanış etməkdir: “Biz düşünür və müzakirə edirik ki, iki qardaş ölkə arasında əlaqələrimizi inkişaf etdirək. Bu əlaqələrin inkişafına zəmin yaradanlardan biri də bu gün keçirilən konqresdir. Qeyd edim ki, burada bir sıra ölkələrdən 350-yə yaxın xarici mütəxəssis iştirak edir. Biz istəyirik ki, hər iki qardaş ölkənin “bir millət, iki dövlət” düşüncələri eyni olsun, sevinci sevinci, kədəri kədəri olsun. Amma istərdik ki, sevincli günlərimizin sayı çox olsun”–deyən rektor, növbəti konqreslərdən birinin işğaldan azad olunmuş Qarabağ torpaqlarında keçirilməsini arzu etdi.




Açılış mərasimində həmçinin konqresin sədri Dr.Ali İhsan Taşçı, Azərbaycan Səhiyyə nazirinin müavini Elsevər Ağayev, Türkiyənin Səhiyyə nazirinin müşaviri və Konqresin həmsədri Dr.Eyüp Gümüş, Türkiyənin Azərbaycandakı səfiri Alper Coşkun, Türkiyə Urologiya Cəmiyyətinin sədri Dr. Bülent Semerci, İstanbul Universitetinin rektoru, Dr.Yunus Şöylet çıxış etdilər. Onlar da çıxışları zamanı keçirilən konqresin əhəmiyyətini, elm, təhsil, səhiyyə və digər sahələrdə əlaqələrimizin səmərəliliyinin artırılmasının zəruriliyini vurğuladılar.

Açılışın yekununda Azərbaycan və Türkiyənin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi və hər iki ölkənin himni səsləndirildi.

Sonra Avrasiya Uroonkoloji Cəmiyyətinin sədri Ali İhsan Taşçı tərəfindən akademik Əhliman Əmiraslanov, Azərbaycan Səhiyyə nazirinin müavini Elsevər Ağayev, Türkiyənin Azərbaycandakı səfiri Alper Coşkun və Fuad Quliyevə cəmiyyətin blekerləri təqdim olundu.



Səhiyyə nazirinin müavini Elsevər Ağayev çıxışı zamanı Avrasiya Uroonkoloji Cəmiyyətinin təşkil etdiyi 6-cı konqresin Azərbaycanda keçirilməsinin təsadüfi olmadığını qeyd etdi. Bildirdi ki, Azərbaycan artıq elm, mədəniyyət, idman sahəsində beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrilib: “Bu konqrens də həmin toplantılardan biridir. Bu toplantıya Türkiyədən 3 rektor, Səhiyyə nazirinin müşaviri, konqresin həmsədri Eyüp Gümüş və 350-ə yaxın xaricdən gələn iştirakçılar qatılıb ki, onların da böyük əksəriyyətini bu sahənin Türkiyədən olan mütəxəssisləri təşkil edir. 3 gün davam edən toplantı zamanı 150-dək məruzə dinləniləcək ki, bunun da 146 –sı Türkiyədən və digər ölkələrdən gələn mütəxəssislərin payına düşür”-deyən Elsevər müəllim konqresdə urologiya və onkologiya problemlərinin müzakirə olunacağını da bildirdi.

Türkiyə Səhiyyə nazirinin müşaviri Eyyüb Gümüş də konqresdə Türkiyədən 260 doktorun iştirak etdiyini, əsasən böyrək, sidik kisəsi, prostat, xayaların onkoloji xəstəliklərindən söhbət açılacağını bildirdi: ”Azərbaycan Səhiyyə naziri ilə apardığımız danışıqlarda iki qardaş ölkə arasında əlaqələrin qurulması və genişləndirilməsi istiqamətində məsələləri müzakirə etmişik. Məqsədimiz həm də elmi mübadilə aparmaq, bu sahədə dünyada baş verən yeniliklərlə azərbaycanlı qardaşlarımızı məlumatlandırmaqdır”-şəklində fikrini tamamladı.

İstanbul Universitetinin rektoru Yunus Şöylet də çıxışında ATU ilə 23 ildir ki, sıx əlaqələrin olduğunu bildirdi: “Universitetlərimiz arasında tələbə mübadiləsi aparırıq. Türkiyənin və Azərbaycanın həkim mütəxəssisləri tez-tez universitetlərimizdə olur, tələbələrlə görüşlər keçirirlər. Bu konqresdə bildiyiniz kimi onkoloji xəstəliklərin müzakirəsi ilə yanaşı, canlı əməliyyatlar da olacaq. 15 ildir ATU-ya gəlirəm. Hər gələndə burada yeniliklərin şahidi oluram. Hazırda universitetin hər cür tibbi avadanlıqlarla təchiz olunmuş modern xəstəxanaları fəaliyyət göstərir. Tələbələr burada keyfiyyətli şəkildə praktik təcrübə qazanırlar. Buna da şəraiti heç şübhəsiz hörmətli akademik Əhliman Əmiraslanov yaradıbdır”-deyən Yunus bəy Azərbaycanda onkoloji sahədə yüksək bilik və bacarığa malik mütəxəssislərin hazırlandığını da diqqətə çatdırdı.

**Qabil ABDULLAYEV**

**Akademik Zərifə Əliyeva adına Ukrayna Beynəlxalq Elmi-Tibbi Mərkəzinin nümayəndə heyəti Azərbaycan paytaxtına səfərdən Kiyevə qayıdıb. Nümayəndə heyətinə Mərkəzin rəhbəri, tibb elmləri doktoru, professor Aydın Salmanov və icraçı direktor Emil Salmanov daxil idi. Səfər Azərbaycan Səhiyyə Nazirliyinin dəvəti ilə ölkəmizin Ukraynadakı səfirliyi tərəfindən təşkil edilmişdi.**

# Akademik Zərifə Əliyeva adına Ukrayna Beynəlxalq Elmi-Tibbi Mərkəzinin nümayəndə heyəti Bakıda olub

Nümayəndə heyətinin üzvləri səfər çərçivəsində Azərbaycan səhiyyə nazirinin müavini Abbas Vəlibəyovla görüşüblər. Görüşdə elm, təhsil və səhiyyə sahəsində əməkdaşlığın perspektivləri, habelə Azərbaycan, Ukrayna və başqa ölkələrin alimlərinin iştirakı ilə birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə edilib. Qeyd olunub ki, təbabət sahəsində Azərbaycan-Ukrayna və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsi və dərinləşdirilməsi sahəsində böyük potensial vardır və tərəflər bu potensialı gerçəkləşdirməyə hazırdırlar.

Aydın Salmanov görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın nurlu xatirəsinə həsr etdiyi üç kitabını nazir müavininə təqdim edib. Azərbaycan xalqının bu şanlı qızının xatirəsinə həsr edilmiş beynəlxalq elmi-praktiki konfransın materialları da Səhiyyə Nazirliyinə təqdim olunub.



Görüşün yekunlarına əsasən müştərək layihələrin həyata keçirilməsi sahəsində əməkdaşlıq və qarşılıqlı anlaşma haqqında memorandum layihəsinin müzakirəsini davam etdirmək və razılaşdırmaq qərara alınıb.

Akademik Zərifə Əliyeva adına Ukrayna Beynəlxalq Elmi-Tibbi Mərkəzinin nümayəndə heyəti Bakıda olduğu müddətdə Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, akademik Əhliman Əmiraslanovla, ölkəmizin tibbi profilli bir sıra elmi-tədqiqat müəssisələrinin və aparıcı klinikalarının rəhbərləri ilə də görüşlər keçirib. Bu görüşlərdə gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub.

Nümayəndə heyətinin üzvləri Heydər Əliyev Fondunda olub, akademik Zərifə Əliyevanın xatirəsinə həsr olunmuş üç kitabı Fonda təqdim ediblər. Görüşdə birgə layihələrin həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında razılaşma əldə edilib.

Professor Aydın Salmanov AzərTAc-a müsahibəsində vurğulayıb ki, Prezident İlham Əliyev Azərbaycanda səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük diqqət yetirir, bunun nəticəsində ölkədə ən müasir avadanlıqlar və aparatlarla təchiz olunmuş tibbi mərkəzlərin tikintisi genişlənir və sürətlənir. Beləliklə, əhaliyə ən yüksək dünya standartları səviyyəsində keyfiyyətli tibbi xidmət üçün zəruri şərait yaradılır.

Professor qeyd edib ki, tibbi müəssisələrin müasir müalicə-diaqnostika avadanlığı və yüksək texnologiyalarla təmin edilməsi sahəsində Azərbaycanın uğurları fantastik təsir bağışlayır. A.Salmanov vurğulayıb: “Mən qəti əminəm: Azərbaycan dünyada yeganə ölkədir ki, nəinki paytaxtda, həmçinin regionlarda da yeni, təmir edilmiş və ya müasirləşdirilmiş tibbi müəssisələrin açılışında Prezidentin şəxsən iştirakı ənənəyə çevrilib. Bu müəssisələrin hər birində əhaliyə keyfiyyətli tibbi xidmətlər göstərilməsi üçün hər cür şərait var. Bütün bunlar təbabət sahəsində uğurla həyata keçirilmiş islahatın nəticəsidir və həm Ukraynada, həm də dünyanın başqa ölkələrində bu profil üzrə sanballı dəyişikliklərin həyata keçirilməsində bu qiymətli təcrübədən istifadə edilə bilər”.

# Birincili sümük şişi olan xəstələrin orqansaxlayıcı müalicəsində optimal endoprotezin seçilməsi ilə xəstələrin həyat keyfiyyətinin yaxşılaşdırılması

**Birincili sümük şişlərinin müalicəsi müasir onkologiyanın ən çətin və aktual problemlərindən biri olaraq qalmaqdadır. Bu şişlər əsasən uşaq, yeniyetmə, gənc yaşlarda inkişaf edərək, yüksək bədxassəliliyi, hematogen metastazların erkən meydana çıxması və proqnozun pis olması ilə fərqlənir.**

Müasir dövrdə sümük sarkomalarının müalicəsində cərrahi, kimyəvi dərman, şüa, kombinəolunmuş və kompleks müalicə metodları tətbiq olunur. Son zamanlara qədər, birincili bədxassəli sümük şişlərinin müalicəsində şikəstedici əməliyyatlara üstünlük verilirdisə, hazırkı dövrdə kimyəvi dərman terapiyasının, müasir diaqnostika üsullarının imkanları, müxtəlif sümük transplantatları və endoprotezlərin (Şəkil 1) praktikaya daxil olması orqansaxlayıcı əməliyyatlara olan göstərişlərin genişlənməsi ilə nəticələnmişdir.



Şəkil 1.

Son zamanlar bədxassəli sümük şişlərinin orqansaxlayıcı müalicə üsulları arsında endoprotezləşdirməyə üstünlük verilir. Bu müalicə şişlə zədələnmiş ətrafın saxlanılması ilə yanaşı, xəstələrin sosial-psixoloji adaptasiyasını və həyat keyfiyyətini yaxşılaşdırır. Əldə olunmuş nailiyyətlərə baxmayaraq, hələ də bu sahədə öz həllini tapmamış məqamlar qalmaqdadır. Müxtəlif növ endoprotezlərin tətbiqindən sonra meydana çıxan ağırlaşmaların tezliyi və səbəbləri barədə məlumatlar müxtəlifdir. Müasir preparatlarla aparılan profilaktik antibiotikoterapiyaya baxmayaraq, postoperasion infeksion ağırlaşmaların faizi hələ də yuxarıdır. Əməliyyatdan sonra endoprotezin qeyri-stabillik risqi yüksək olaraq qalır. Ağırlaşmaların profilaktika və müalicə taktikası tamamilə işlənib hazırlanmamışdır. Ətrafın saxlanılmasına baxmayaraq, meydana çıxan ağırlaşmalar onun funksional imkanlarını məhdudlaşdırmaqla yanaşı, xəstənin həyat keyfiyyətinə də öz mənfi təsirini göstərir.

Sümüklərin postrezeksion defektlərinin bərpasına dair ilk məlumatlar XIX əsrin sonlarına aiddir. 1883-cü ildə Y.Penskiy heyvanlar üzərində oynaq köçürməsi əməliyyatı icra etmişdir. 1900-cü ildə Titse mil sümüyünün distal nahiyəsinin nəhənghüceyrəli şişinə görə aparılmış əməliyyat zamanı, defekti baş barmağın əsas falanqası hesabına bərpa etmişdir. Sonrakı dövrlərdə mütəxəssislər autogen, allogen, ksenogen transplantatlar və müxtəlif növ endoprotezlər istifadə etmişdilər. 1938-ci ildə A.İ.Moor bud sümüyünün birincili şişinə görə sümüyün distal rezeksiyasını icra etmiş və defekti hazırladığı endoprotezlə əvəz etmişdir. 1940-cı ildə isə bud sümüyünün burmaarası nahiyəsinin şişinə görə bud sümüyünün proksimal rezeksiyası və metal endoprotezlə defektin plastikasını həyata keçirmişdir. Bununla da, ortopediya və onkologiyada sümük və oynaqların endoprotezləşdirilməsi əsri başlanmışdır. Sümük və oynaq protezləşdirilməsinin təkmilləşməsində E.Lexer, R.Judet, R.Kotz, M.Panova, S.Zasepin, K.Sivaş və b. alimlərin böyük rolu olmuşdur.

Bədxassəli sümük şişlərinin müalicəsində orqansaxlayıcı əməliyyatlar daha geniş tətbiqini son 20-30 ildə tapmışdır. Praktikada tətbiq edilən müxtəlif növ endoprotezlər (Sivaş, Poldi, Link, Hippokrat və b.) onko-ortopediyada əsl inqlabasəbəb olmuşdur. Belə ki, bu növ endoprotezlərin tətbiqi sayəsində, həm böyük defektlərin bərpası, həm də şişlə zədələnmiş ətrafın və onun funksiyasının saxlanılması mümkün olmuşdur (Şəkil 2).



Şəkil 2.

Klinik praktikaya şiş əleyhinə yeni effektiv dərman preparatlarının daxil olması xəstələrin ömrünü uzadaraq, onların həyat keyfiyyəti problemini daha da aktuallaşdırmışdır. Buna görə də, onkoloji xəstələrdə iri oynaq və sümüklərin endoprotezləşdirilməsinin şiş əleyhinə müalicənin funksional və psixoloji nəticələrinin yaxşılaşdırılmasına yönəlmiş xüsusi perspektivləri vardır. Onkologiyanın əsas prinsiplərindən olan ablastikaya riayət etmək, cərrahi texnikanın, endoprotezlərin dizaynının təkmilləşdirilməsi və şiş əleyhinə daha effektli preparatların tətbiqi yaxın gələcəkdə endoprotezləşdirməyə olan göstərişlərin daha da genişlənməsinə və qənaətbəxş nəticələrin alınmasına səbəb olacaqdır.

Yuxarıda geyd edilənlərə görə, tərəfimizdən təqdim olunan layihə mühüm elmi-praktik əhəmiyyətə malik məsələ hesab edilmiş və tədqiqatın aparılmasına əsas vermişdir.

Tədqiqatda ilk dəfə olaraq sümük şişi olan xəstələrin orqansaxlayıcı müalicəsində fərdi və modul endoprotezlərin istifadəsi ilə aparılan endoprotezləşdirmə əməliyyatlarından sonra meydana çıxan ağırlaşmalar, funksional nəticələr və endoprotezlərin "yaşama" göstəriciləri müqayisəli təhlil olunmuş, alınmış nəticələrdən asılı olaraq daha məqsədəuyğun endoprotez növü seçilmişdir.

Tədqiqat kontigentini ATU-nun Onkologiya kafedrasında müxtəlif lokalizasiyalı sümük şişlərinə görə müalicə olunmuş xəstələr təşkil etmişdir. Xəstələrdə aparılan müayinələr klinik, laborator, USM, rentgenoloji, kompyuter-tomoqrafik, sitoloji, histoloji müayinələrdən ibarət olmuşdur.

Tədqiqatın məqsədi birincili sümük şişləri zamanı müxtəlif növ (fərdi və modul) endoprotezlərin tətbiqi ilə aparılan orqansaxlayıcı əməliyyatların nəticələrinin müqayisəli qiymətləndirilməsi əsasında, optimal endoprotezin seçilməsindən ibarət olmuşdur. Göstərilən məqsədə nail olmaq aşağıdakı vəzifələrin həlli tələb edilirdi:

1. Birincili sümük şişlərinin cərrahi müalicəsində istifadə olunan fərdi və modul endoprotezlərdən hansının daha məqsədəuyğun olduğunu göstərmək;
2. Müxtəlif növ endoprotezlərin tətbiqi ilə aparılan cərrahi əməliyyatlardan sonra meydana çıxan ağırlaşmaları müəyyənləşdirmək;
3. Birincili sümük şişlərinə görə müxtəlif növ endoprotezlərin istifadəsi ilə aparılan əməliyyatlardan sonra funksional nəticələri müqayisəli öyrənmək;
4. Müxtəlif növ endoprotezlərin tətbiqi ilə aparılan cərrahi əməliyyatlardan sonra, endoprotezlərin davamlılığını öyrənmək və müqayisə etmək.

Aparılmış araşdırmalar birincili sümük şişi olan xəstələrin orqansaxlayıcı müalicəsindən sonra onların həyat keyfiyyətinin yaxşılaşdırılmasına xidmət etmişdir.

**Şamil TAĞIYEV,**
*Onkologiya kafedrasının assistenti, layihənin rəhbəri*

# BÖYÜK ELMİ ŞURADA

*(əvvəli səh. 2-də)*

müavinlərinə, digər təşkilatçılara, imtahan nəzarətçilərinə təşəkkürünü çatdıran akademik Ə.Əmiraslanov kredit sistemi haqqında fərqli fikirlərə də aydınlıq gətirdi: "Kredit sistemi, il boyu qiymətləndirmə və imtahan formasına münasibət birmənalı deyil. Müasir dünya təhsilindən azçox xəbəri olan hər kəs bilməlidir ki, bu, geriyədönməz prosesdir və qarşımıza yeni tələblər qoyur. Yadınızdadırsa, universitetlərin birində test üsulunu ləğv edib yazılı imtahana keçmək istəyi tələbələrin kütləvi etirazına səbəb oldu. Bu sistemə qarşı çıxanlar qarşılarında tələbələri görəcəklər. Çünki yeni imtahan üsulundan ictimaiyyət razıdır və bu barədə bizə də yüzlərlə təşəkkür məktubu gəlir".

Semestrdə tələbələrə bal yazmaq üçün bəzi kafedra müdirlərinin müxtəlif neqativ hallara yol verməsinə kəskin münasibət bildirən universitet rəhbəri onları tənqiddən nəticə çıxarmağa çağırdı: "Gəlin açıq danışaq, həmin kafedraların adlarını da çəkə bilərəm və düşünürəm ki, özləri söhbətin kimlərdən getdiyini yaxşı anlayırlar. Tələbələr, valideynlər barələrində dəfələrlə yazıbar, istehsalat müşavirələrində nöqsanlarını üzlərinə deyiblər. Məhz həmin kafedralarda "bəlkə də qaytardılar" xülyası ilə yaşayanlar yeni təhsil istiqamətinə xələl gətirmək istəyirlər. Beləleri əməllərindən əl çəkməsələr, cari mənimsəmə ballarını müəyyən etmək səlahiyyəti də Virtual Test Mərkəzinə veriləcək".

Bəzi kafedra müdirlərini ciddi tənqid edən rektor müsbət nümunə gətirməyi də unutmadı. Tədrisin keyfiyyətində kafedra müdirlərinin və müəllimlərin rolunu önə çəkərək xatırlatdı ki, vaxtilə ən çox şikayət olunan kafedra patoloji anatomiya kafedrası idi. Kafedraya yeni müdirin seçilməsi ilə vəziyyət yaxşıya doğru xeyli dəyişdi.

Ağıllı, obyektiv, arxasında çirkin niyyətlərin gizlənmədiyi təklifləri qəbul etməyə həmişə hazır olduğunu dilə gətirən rektor imtahanların sayını azaltmaqla yanaşı, yaxın fənləri birləşdirməyi də məqsədəuyğun saydı.

Hesabat məruzəsinin müzakirəsindən sonra Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov 2012-2014-cü ildə bağlanmış "Kollektiv Müqavilə"nin müddətinin bitdiyini şura üzvlərinin nəzərinə çatdırdı və universitetin 2015-2017-ci illər üçün yeni "Kollektiv Müqavilə"sinin hazırlandığını dedi.

9 bölmədən ibarət "Kollektiv Müqavilə"nin işə götürən və əmək kollektivi tərəfindən imzalanmasına razılıq verən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**
**Fotolar Cənnətalı Çingizindir**

# ATU-da Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Qrant layihəsi

# Tibbi Şuranın genişləndirilmiş toplantısı

**Yanvarın 23- də Tədris Terapevtik Klinikanın Tibbi Şurasının genişləndirilmiş toplantısı keçirilib. Universitetin prorektorlarının da qatıldığı toplantını açan klinikanın direktoru, ə.e.x. professor Surxay Musayev gündəlikdə duran məsələləri diqqətə çatdırdı.**

"Klinikanın 2014-cü ildə müalicə diaqnostik fəaliyyətinin yekunları haqqında" klinikanın baş həkimi, dosent Ramin Bayramlı geniş hesabat məruzəsi ilə çıxış etdi. İlk növbədə klinikada yaradılan şəraitə, əməkdaşlara göstərilən qayğıya görə ölkə və universitet rəhbərliyinə təşəkkürünü bildirən baş həkim dedi ki, respublika rəhbərliyinin apardığı uzaqgörən siyasəti nəticəsində ölkəmizdə baş verən dinamik inkişaf klinikamızın da işinə öz müsbət təsirini göstərmişdir. Klinikanın fəaliyyətini əhaliyə müalicə-diaqnostik xidməti konsultativ-diaqnostik xidmət və stasionar müalicə xidməti istiqamətində qurduğunu vurğulayan məruzəçi bu klinikanın Nazirlər Kabinetinin 2010- cu il sərəncamına əsasən özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərdiyini bir daha xatırlatdı. O, məruzəsində əsas diqqəti 2013-cü illə müqayisədə qazanılan uğurlara yönəldərək bildirdi ki, universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanovun 2014- cü ildə imzaladığı əmrə əsasən ATU modul tipli tədris sisteminə keçib və klinikada fəaliyyət göstərən şöbələr ixtisaslı şöbələrə çevrilib. Natiq hesabatını əsasən statistik rəqəmlər üzərində quraraq paralellər apardı, bütün bölmələrdə göstəricilərin ötən illə müqayisədə nəzərə çarpacaq dərəcədə yüksəldiyini slaydlar vasitəsilə nümayiş etdirdi. Klinikanın iş prinsipi, stukturu və tibbi personalı haqqında məlumat verən natiq bildirdi ki, hazırda 249 nəfər kafedra əməkdaşının və eləcə də 221 nəfər klinika əməkdaşının çalışdığı klinikada hesabat ili ərzində respublikamızın bütün şəhər və rayonlarından terapevtik, pediatrik və nevroloji yönümlü xəstələrin diaqnostikası, müalicəsi və reabilitasiyası aparılıb. Ürək- damar Mərkəzində müalicə alanların sayında ötən illə müqayisədə 55, 7% artım qeydə alınmışdır. Həmçinin stasionar şəraitdə müalicə alanlarda 12,8%, ambulator müalicə alanların sayında isə 14, 5% artım olub. Əhaliyə konsultativ- diaqnostik xidmətin əsas ağırlığının klinikanın konsultativ- diaqnostik poliklinikanın ixtisaslaşdırılmış kabinet və laboratoriyaların üzərinə düşdüyünü deyən natiq bura müraciət edənlərin sayında da ötən ilə nisbətən 69, 57% artım təşkil etdiyini diqqətə çatdırdı.

Müxtəlif ixtisaslar üzrə klinikada hazırlıq keçən həkim-rezidentlərin fəaliyyətləri üçün də hər cür şərait yaradıldığını vurğulayan R.Bayramlı daha çox 2014-cü ildə reallaşan yeniliklər üzərində dayandı. Qeyd etdi ki, bu il peyvənd otağı, hematoilogiya şöbəsi açılmış, o cümlədən artıq ölkədə ilk dəfə olaraq mərkəzi laboratoriyada reaktivlərin yüksək şəraitdə saxlanılması üçün 2 motorlu soyuducu depo yaradılmışdır ki, motorun biri sıradan çıxdıqda digəri işə düşür. O, cümlədən keyfiyyətə nəzarət və depoya nəzarət kimi yeniliklər də bu qəbildən sayıla bilər. O, gələcəkdə Ürək Damar Mərkəzində kardioreanimasiya şöbəsinin qurulması, üçölçülü xəritələmə sisteminin tətbiqi və digər yeniliklərin də nəzərdə tutulduğu barədə məlumat verdi.



Sözünə davam edən R.Bayramlı dedi ki, klinikanın marketinq işlərinə də xüsusi fikir verilir. Belə ki, marketinq bölməsi ölkəmizdə bir sıra tanınmış sığorta şirkəti ilə müqavilə bağlamış, reklam işləri çərçivəsində müxtəlif formalarda çarxlar hazırlanaraq ölkənin aparıcı televiziya kanallarında efirə verilmişdir. Azərbayca televiziyasının "Sağlam ol" verlişində klinikanın əksər mütəxəssisləri ilboyu çıxış ediblər. Ümumiyyətlə, Klinikanın bütöv fəaliyyəti haqqında baş verən yeniliklər, əməkdaşların müsahibəsi, xəbər, məqalə xarakterli məlumatlar vaxtaşırı respublika mediasında yayımlanmışdır.

İl ərzində görülən digər işlər, tibbin müxtəlif sahələrinə dair konfrans, konqres və simpoziumların keçirilməsi barədə də toplantı iştirakçılarına məlumat verən R. Bayramlı bildirdi ki, xəstələrin müasir protokol və qaydalar əsasında müayinə və müalicəsinin təşkili, yeni protokolların hazırlanması, həkimlərin nəzəri və təcrübi biliklərinin artırılması, ixtisaslaşması, rezidentlərlə iş yüksək səviyyədə qurulmuş, onların stasionar müalicəyə cəlb edilməsi, eləcə də seminarlarda iştirakının təşkili, xaricə rotasiyaya göndərilməsi, təcrübə peşəkarlığının artırılması 2014-cü ildə əsas məsələlərdən biri olmuşdur. Bundan başqa klinikada fəaliyyət göstərən bir sıra şöbələr inkişaf etmiş ölkələrdən gətirilmiş ən müasir texniki avadanlıq və cihazlarla təchiz edilmişdir ki, bu da müalicə işinin daha yüksək aparılmasında geniş imkanlar yaradır. Bütün bu işlərin həyata keçirilməsində universitet və klinika rəhbərliyinin rolunu xüsusi qeyd edən R. Bayramlı klinikada müalicə- diaqnostik xidmətin gücləndirilməsinin pirotitet məsələ kimi kollektivin qarşısında durduğunu vurğulayaraq, növbəti ildə yeni nailliyyətlərin qazanılmasında kollektivə uğurlar dilədi.

Universitetin elmi işlər üzrə prorektoru, professor Sabir Əliyev tədris prosesinin önə çəkilməsininin vacibliyini xüsusi qabartdı: " Klinikanın adından da göründüyü kimi burada tədris əsas məsələ kimi qarşıya qoyulmalıdır. Bu həm də universitet klinikasıdır. Universitet klinikaları ölkədə ən aparıcı klinika olmalıdır. Bizim birinci vəzifəmiz klinikada tədrisin keyfiyyətinin artırılmasına nail olmaqdan ibarətdir. Ancaq o demək deyil ki, hər şey qaydasındadır. Tədris prosesinin aparılmasında ciddi çatışmazlıqlar da mövcuddur. Mən bu tədris ili başlayandan bir sıra kafedralarda və eləcə də klinikalarda bir sıra görüşlər keçirdim. Xüsusən kliniki kafedralarda Boloniya prosesinin tələbləri kifayət qədər yerinə yetirilmir. İmtahan zamanı apellyasiyaya gələn dosentlərin əksəriyyəti bu məsələyə hazır deyil. Hətta adi qiymətləndirməni bilmir, cari mənimsəmənin nə qədər olması, bacarıqlara görə balların necə qiymətləndirilməsi, dərs buraxmaya görə hansı balların çıxılmasına aid elementar sualları cavablandırmaqda çətinlik çəkirlər. Bütün bunlara görə ilk növbədə kafedra müdirləri məsuliyyət daşıyırlar. Testlərin imtahan vaxtı yoxlanışına baxanda görürəm ki, test sualları çox primitiv tərtib olunub. Əgər Avropa təhsil sisteminə inteqrasiyadan danışırıqsa, aparılan mühazirələrin, məşğələ dərslərinin qaydalarını dəyişməli, dünyada baş verən yeniliklərin gecikmədən ölkəyə gətirilməsinə nail olmalıyıq.

Dünyanın inkişaf etmiş ölkələrində baş verən yeni üsullar az zaman kəsiyində universitet klinikalarında tətbiq olunur. Əgər biz o yenilikləri tez bir zamanda gətirib klinikalarımızda tətbiq eləməsək istədiyimiz keyfiyyətə nail ola bilmərik. Bəzən rezidentlərimiz bizə müraciət edir ki, onları xarici ölkələrə göndərək. İndiki tələbələr əvvəlki tələbələr deyil. Hamı internet vasitəsi ilə hər bir yenilik barədə məlumatı alır. Ona görə də hər bir müəllim girdiyi auditoriyada və mühazirə dediyi dərslərdə diqqətli olsun. Tələbələrin dərslik sarıdan da etirazları var. Bu da dərsliklərin yenidən işlənməsinə ehtiyac olduğunun göstərir. Elə hesab edirəm ki, kafedralarımızda çalışan professor və müəllim heyəti işlərini dövlətin bizim qarşımızda qoyduğu vəzifələrə uyğun quracaq və bacarıqlı kadrların yetişməsində əllərindən gələni edəcəklər.

Kənar bazalarda yerləşən kafedralardan fərqli olaraq Tədris Terapevtik Klinikada rezidentlərlə iş yüksək səviyyədə təşkil olunubdur.".



Klinikanın 2014-cü il üçün hazırlanmş hesabatını qənaətbəxş qiymətləndirən universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev klinikanın fəaliyyəti, əldə olunan nailliyyətlər, qazanılan uğurların, baş həkimin məruzəsində öz əksini tapdığını qeyd etdi. O, ölkə rəhbəri cənab İllham Əliyevin bu günlərdə " Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" nın həyata keçirilməsi ilə bağlı "Fəaliyyət Planı" nın təsdiq edilməsi haqqında imzaladığı sərəncamı diqqətə çatdıraraq bildirdi ki, qabaqcıl innovasiyaların, yeni üsulların tədrisə gətirilməsi və ali təhsil sistemində yeni strategiyanın tətbiqi ölkədə fəaliyyət göstərən hər bir təhsil müəssisəsinin öz reytinqini təsdiq edəcəyinə gətirib çıxaracaq. Bu da tələbələrin təhsil aldığı universitetdə tədrisin keyfiyyətinin daxili qiymətləndirməsi, təhsil müəssisəsinin beynəlxalq aləmdə tanınmasına verilən xarici qiymətləndirmə və ictimaiyyət qarşısında qazandığı reytinqə əsasən verilən qiymətləndirmə formasında müəyyən ediləcək. Universitetdə aparılan elmi-tədqiqat işlərinin də bu əsas amillərdən biri olduğunu qeyd edən İ.İsayev söylədi ki, "Universitetimizin reytinqinin artırılmasında əməkdaşlarımızın üzərinə böyük məsuliyyət düşür. Belə ki, onlar təkcə ölkəmizdə deyil, həm də xaricdə yüksək səviyyəli mətbuat vasitələrində də vaxtaşırı öz elmi işlərini dərc etdirməli, qabaqcıl innovasiyaları universitetimizə gətirib tətbiq etməlidirlər. Bunun üçün də mütəxəssislərimiz gələcəkdə tədris və müalicə ilə yanaşı, elmi-tədqiqat işlərini də aparmalıdır. Çünki baş həkimin məruzəsindən də göründüyü kimi, klinikalarımızda elmi-tədqiqat işlərini yüksək səviyyədə aparmaq üçün hər cür potensial şərait mövcuddur. Bir çox elmi müəssisələrdən, o cümlədən elmlər akademiyasından universitetimizə, şəxsən hörmətli rektorumuza müraciətlər olur ki, onlar elmi-tədqiqat işlərini aparmaq üçün gəlib bizim bazamızdan istifadə etsinlər. Bu da ona gətirib çıxarır ki, bu işlərin görülməsi həm universitetimizə gəlir gətirəcək, həm də bu sahədə reytinqi qalxacaq."

Klinikanın direktoru, professor Surxay Musayev çıxışlarda səslənən fikirlərə münasibətini bildirərək, qeyd etdi ki, bu klinika əhaliyə tibbi xidmətlə bərarər, adından da göründüyü kimi fəaliyyətini həm də tədrisin yüksək səviyyədə tədris olunmasına yönəldib: "Hesabatdan da məlum oldu ki, əvvəllər klinikaya müraciət edənlər arasında şəhər əhalisi üstünlük təşkil eidirdisə, indi ucqar kəndlərdən gələnlər daha çoxdur. Bu da o deməkdir ki, klinikamız artıq reşpublikamızda özünəməxsus imic qazanıb."

O, klinikada baş verən ən son yeniliklər, şöbələrdə yaradılan şərait, aparılan uğurlu əməliyyatlar, mütərəqqi üsullar barədə də toplantı iştirakçılarına məlumat verərək bildirdi ki, ölkə rəhbərinin və universitetimizin rektoru, akademik Əhliman Əmiraslanovun xüsusi diqqət və qayğısı sayəsində klinikamız ən müasir avadanlıqlarla təchiz olunub və hal- hazırda dünyanın aparıcı klinikaları ilə bir sırada yer alır.

**MƏNSUR**

# Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin anadan olmasının 118 illiyinə həsr edilmiş elmi konfrans keçirilib

**Yanvarın 15-də görkəmli dövlət və elm xadimi, pedaqoq-alim, professor Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 118-ci ildönümünə həsr edilmiş elmi konfrans keçirilib.**

AzərTAc xəbər verir ki, unudulmaz şəxsiyyətin adını daşıyan Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda keçirilən konfransda tibb ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

İnstitutun rektoru Nazim Qasımov Azərbaycan təbabəti tarixində xüsusi yeri olan Əziz Əliyevin həyat və fəaliyyəti barədə konfrans iştirakçılarına ətraflı məlumat verib. Bildirilib ki, Əziz Əliyev 1897-ci il yanvarın 1-də İrəvan quberniyasının Hamamlı kəndində Məmmədkərim Kərbəlayi Qurbanəli oğlunun ailəsində anadan olub. Anası Zəhra xanım İbrahim bəy Süleymanbəyovun qızı idi. O, 1908-ci ildə İrəvandakı gimnaziyaya daxil olub, 1917-ci ildə buranı bütün fənlər üzrə "əla" qiymətlərlə bitirib. Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə Hərbi Tibb Akademiyasına daxil olsa da, təhsili yarımçıq qalıbdır. Onun Bakı həyatı 1923-cü ildən başlayıb. Bakıda ilk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin ümumi şöbə müdirinin müavini, katibin müavini və nəhayət, respublika Xalq Komissarlığı Şurasının katibi vəzifəsini icra edib. O, bu çətin və məsuliyyətli vəzifələrdə çalışmaqla yanaşı, 1927-ci ildə Bakı Dövlət Universitetinin tibb fakültəsini bitirib və universitetin daxili xəstəliklər kafedrasında saxlanılıb.

Qeyd olunub ki, Əziz Əliyev İkinci Dünya müharibəsi illərində Azərbaycanda səhiyyənin təşkili məsələsinə xüsusi diqqət yetirib. Xalq Səhiyyə Komissarlığı müalicə şöbəsinin müdiri, Bakı səhiyyə şöbəsinin müdiri, xalq səhiyyə komissarının müavini, xalq səhiyyə komissarı vəzifələrində çalışarkən səhiyyə sahəsində problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görüb. Əziz Əliyev 1934-cü il martın 30-da



paytaxtda səhiyyə işlərini yaxşılaşdırmaq məqsədilə Bakı şəhər səhiyyə şöbəsinin müdiri, 1935-ci il yanvarın 14-də Azərbaycanda yüksək ixtisaslı milli tibb kadrlarının hazırlığını gücləndirmək məqsədilə Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru təyin edilib. O, 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışaraq özünü bacarıqlı dövlət xadimi kimi göstərə bilib. 1949-1950-ci illərdə Moskvada ÜK (b) P MK-nın inspektoru, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləyib.

Diqqətə çatdırılıb ki, Əziz Əliyev həm də gözəl ailə başçısı olub. Qızı Zərifə xanım Əliyeva görkəmli oftalmoloq kimi ad-san qazanıb, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilib. Qızı Gülarə xanım Əliyeva görkəmli musiqiçi, mahir piano ifaçısı olub. Oğlu Tamerlan Əliyev tibb elmləri doktoru, professor elmi dərəcələrinə yüksəlib. Əziz Əliyevin daha bir oğlu akademik Cəmil Əliyev hazırda Milli Onkologiya Mərkəzinin direktorudur.

Rektor qeyd edib ki, professor Əziz Əliyevin həyat yolu hər bir mərhələdə elmi, pedaqoji, ictimai və dövlət fəaliyyəti sahələri ilə zəngin olub. Ölkəmizdə ali tibb təhsilinin, ixtisasartırma və kadrların yenidən hazırlanması sisteminin, səhiyyə təşkilatları və müəssisələri şəbəkəsinin əsasını qoyanlardan biri kimi onun nəsillərə saxladığı irs öz dəyərini hələ də itirməyibdir.

Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun inkişafında və beynəlxalq aləmdə tanıdılmasında, milli tibb kadrlarının, səhiyyə işçilərinin hazırlanmasında Əziz Əliyevin fəaliyyəti xüsusi vurğulanıb. Qeyd olunub ki, görkəmli alimin ömrünün böyük bir hissəsi Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu ilə bağlı olub.

Konfransın elmi hissəsində institutun gənc alimlərinin təbabətin müxtəlif problemlərinə dair məruzələri dinlənilib və müzakirələr aparılıb.

# Uğurlu Beynəlxalq simpozium

**12-15 yanvar 2015-ci il tarixdə Pakistan İslam Respublikasının Kəraçi şəhərində Molekulyar Təbabət və dərman tədqiqatı üzrə 5-ci Beynəlxalq simpozium keçirilmişdir.**



Bu beynəlxalq tədbirin əsas məqsədi molekulyar təbabət və ona yaxın elmlərin inkişafını sərgiləmək, eyni zamanda gənc və təcrübəli alimləri dünyanın müxtəlif ölkələrindən bir yerə yığaraq onların səmərəli şəkildə əməkdaşlığına şərait yaratmaq olmuşdur. Simpoziumda ABŞ, Almaniya, İtaliya, İngiltərə, İordaniya, İran,Kanada, Qazaxıstan, Misir, Pakistan, Türkiyə,

Şri-Lanka kimi ölkələrdən gəlmiş mütəxəssislər gen–gövdə hüceyrələr terapiyası, gen mühəndisliyi, molekulyar onkologiya, molekulyar farmakologiya, neyrofarmakologiya, təbii birləşmələr, o cümlədən bitki kimyası problemləri, bioinformatika, nanotəbabət və s. müasir elmi problemlər barəsində məruzələr dinlənilmişdir.

ATU-nun Bioloji Kimya kafedrasının əməkdaşı Hafiz Osmanov, "ABFARMA"MMC-nin direktoru Arzu Abbasov, İran İslam Respublikası Ərdəbil Tibb Universitetinin məzunu dr.Amirreza Qəmamno Azərbaycan nümayəndəliyini təmsil edərək qətransızlaşdırılmış naftalan-təsir mexanizmlərinin molekulyar səviyyədə öyrənilməsi perspektivləri, eləcə də ureyin işemik xəstəliklərində apoptoz mərhələsinin öncədən mövcud müasir markerlərlə tədqiqi mövzuları üzrə məruzə ilə çıxış etmişlər.Üç gün davam edən simpozium yüksək qonaqpərvərlik şəraitində uğurlu fikir və təcrübə mubadiləsi ilə sona çatmışdır. Azərbaycan nümayəndəliyi "Herbion" əczaçılıq zavodu və şirkətinin iş fəaliyyəti ilə tanış olmuşlar.

Sevindirici haldır ki, simpoziumun təşkilat komitəsinin sədri professor dr.Məhəmməd İqbal Çoudari İqtisadi Əməkdaşlıq Təşkilatı-EKO-nun 2006-cı ildə Bakıda keçirilən tədbirində Azərbaycan Respublikası prezidenti cənab İlham Əliyev tərəfindən təhsil üzrə mükafata layiq görülmüşdür.

**«TƏBİB»**

# İlk rezident həkimlərə diplomlar verildi

**Azərbaycanda tibb elmi sahəsində 2011-ci ildən tətbiq olunan rezidentura mərhələsinin ilk məzunlarına diplomlar təqdim edilib.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a verilən məlumata görə, səhiyyə naziri Oqtay Şirəliyev bu il ilk məzun olmuş 94 rezidentdən bir qrupunu qəbul edib.

Nazir ölkəmizdə 2011-ci ildən ali tibb təhsili əsasında mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbulun aparıldığını qeyd edib: "Bu təhsil tibb sahəsində yüksək ixtisaslı mütəxəssis hazırlamaq üçün bütün dünyanın, Amerikanın, Avropanın və bizim də məmnuniyyətlə qəbul etdiyimiz bir yoldur. Həkimlik peşəsi çox məsuliyyətli və çətin peşədir. Ölkədə köklü dəyişikliklər olunur, əsaslı təmir olunan tibb müəssisələri əhalinin istifadəsinə verilir. Tibb sahəsində görülən işlər, yaradılan şərait, infrastruktur, yüksək təchizat tibb işçilərinə əhaliyə daha da keyfiyyətli tibbi xidmət göstərmək üçün şərait yaradır."

Sonda Oqtay Şirəliyev ilk rezident həkimlərin peşəkar mütəxəssislər olacağına əminliyini bildirərək onlara uğurlar arzulayıb.

# Azərbaycanda təhsil alan iranlılar 20 Yanvar faciəsi ilə bağlı bəyanat yayıblar

Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi-Mədəni və İdman Birliyi 20 Yanvar faciəsi ilə bağlı bəyanat yayımlayıb.

Bəyanatda Sovet ordusunun Bakıda dinc əhaliyə qarşı törətdiyi dəhşətli qırğın pislənilib və onun unudulmayacağı vəd edilib. Bəyanatda deyilir: "Biz, Azərbaycanda təhsil alan iranlı Elmi-Mədəni və İdman Birliyi bildiririk ki:

1990-cı il yanvarın 19-dan 20-sinə keçən gecədən 25 il ötməsinə baxmayaraq, Sovet ordusunun Bakıda dinc əhaliyə qarşı törətdiyi dəhşətli qırğını unutmayacayıq. O gecə Ermənistanın işğalçı iddialarına qarşı çıxan qardaş Azərbaycan xalqı Bakının küçə və meydanlarına çıxdı. Dinc xalqa qarşı yeridilən silahlı qoşunun hərəkətləri qanlı faciəyə səbəb oldu. Sovet qoşunlarının törətdiyi qırğın nəticəsində Bakıda 134 dinc vətəndaş öldürüldü, 600-dən çox insan yaralandı, 800-dən çox adam isə haqsız yerə həbs edildi. Qətlə yetirilənlər arasında beş millətin nümayəndələri, uşaqlar, qocalar, qadınlar və əlillər də var idi.

Artıq, 25 ildir ki, dünya, o cümlədən, İran



xalqı 20 Yanvar faciəsini Azərbaycan xalqının ümumxalq hüzn günü kimi qəbul edir, bu günü qeyd etməklə xatırlayır, konfranslar, tədbirlər, sərgilər təşkil etməklə Azərbaycanla həmdərd olduqlarını nümayiş etdirirlər. Biz, iranlı tələbələrin Azərbaycandakı birliyi olaraq 20 Yanvar faciəsinin xatirəsini dərin ehtiramla yad edir və bəşəriyyətə qarşı törədilən hər növ cinayəti pisləyirik.

**Allah bütün müsəlman şəhidlərimizə rəhmət eləsin!"**

## FAYDALI MƏSLƏHƏT

**Bu günkü ekologiya, az hərəkətli həyat tərzi, zərərli vərdişlər, düzgün qidalanmama qan damarlarında kifayət qədər ciddi problemlər yaradır, müxtəlif damar xəstəliklərinə səbəb olur. Buna görə də mütəmadi olaraq damarların qayğısına qalmaq, onların təmizlənməsini təmin etmək sağlamlıq üçün olduqca vacibdir.**



Damarların normal vəziyyətdə olması üçün ilk növbədə aşağıdakılara riayət etmək lazımdır:

*1. Maksimum dərəcədə xolesterinin orqanizmə daxil olması məhdudlaşdırılmalıdır. Bu məhdudiyyət nəticəsində damarlar daha elastik və sağlam olacaq.*

*2. Yeməklərin hazırlanmasında yalnız bitki yağından istifadə olunmalıdır. Qida rasionundan heyvan mənşəli yağlar çıxarılmalıdır.*

*3. Yağlı və piyli ət məhsullarından imtina edilməlidir. Daha çox quş əti və balıq məhsullarına üstünlük verilməlidir.*

*4. Gündəlik qida rasionuna az miqdarda olsa da qoz, fındıq, badam və ya püstə daxil edilməlidir.*

*5. Sutka ərzində orqanizm ən azı 200-300 qram meyvə və tərəvəz qəbul etməlidir.*

*6. Xolesterinin səviyyəsini aşağı salmaq xüsusiyyətinə malik olan sarmısaqdan gündəlik istifadə etmək lazımdır.*

*7. Spirtli içkilərdən və siqaretdən imtina etmək mütləq şərtlərdən biridir.*

*8. Gün ərzində ən azı 40 dəqiqə piyada gəzmək, orqanizmin fiziki aktivliyi təmin edilməlidir.*

*9. Qan laxtalanmasının qarşısını almaq üçün sutka ərzində heç olmasa 2 litrə qədər adi qazsız su qəbul edilməlidir.*

*Damarların xalq təbabəti vasitələri ilə təmizlənməsinin bir çox üsulları var. Onların bir neçəsini diqqətinizə çatdırırıq.*

*1. 2 ədəd limon və 2 ədəd portağal (apelsin) qabığı soyulmadan doğranılır, tumları çıxarılır və ət maşınından keçirilir. Alınmış kütlənin üzərinə 3 xörək qaşığı təbii bal əlavə edilərək yaxşıca qarışdırılır və ağzı kip bağlanan şüşə qabda otaq temperaturunda 24 saat saxlanılır. Gündə iki dəfə yeməkdən 10 dəqiqə əvvəl 2 çay qaşığı qəbul edilir.*

*2. 3-4 iri kartofun qabığı yuyulduqdan sonra üzərinə 500 qram təmiz su əlavə edilir və 30 dəqiqə zəif odun üzərində saxlanılır. Soyuduqdan sonra süzülür və hər gün səhərlər acqarnına qəbul edilir. Kurs 12-15 gündür.*

*3. 500 qram çuğundur şirəsi, 300 qram kök şirəsi, 300 qram kartof şirəsi qarışdırılır, gün ərzində 3 dəfə yeməkdən qabaq ac qarnına 50 qram qəbul edilir.*

Bu sadə üsullardan istifadə etməklə damar problemlərindən asanlıqla yaxa qurtarmaq olar. Hamı üçün əlcatan olan bu vasitələrdən istifadə etdikdən az müddət sonra orqanizmdəki müsbət dəyişikliklərin şahidi olacaqsınız.

# Yumurtanı nə qədər yesək faydalı olar?

**Əgər yumurta yeməyi sevirsinizsə, gərək onun nə qədər yeyilə biləcəyindən xəbərdar olasınız.**



Yumurta çox faydalı bir qidadır. Hər bir yumurtanın tərkibində 70 kalori vardır və proteinlə zəngindir. Qandakı şəkərin səviyyəsini tənzim edər. Yumurtanın tərkibində olan protein bədənin amin turşularına olan ehtiyacını təmin edər. Yumurtanın sarısı anti-oksidantlarla zəngindir ki, bədənin bir çox xəstəliklərini aradan qaldırar. Mirvari suyunun gözə gəlməsinin qarşısını alar, xərçəng və ürək xəstəliklərinə qarşı da faydalıdır.

Yumurtanın tərkibində selenium vardır. Bu anti-oksidant bədənin hüceyrələrinin məhv olmasının qarşısını alar. İmmun sistemini gücləndirər.

Yumurtanın tərkibində D və B vitamini vardır.

Tədqiqatlar göstərdi ki, gündə bir yumurta yemək ürək və əzələ xəstəlikləri baxımından heç də təhlükəli deyildir. Bundan başqa, insana toxluq hissi verdiyi üçün arıqlamaq istəyənlərə yardım edir. Bu insanlar səhər yeməyində yumurta yedikləri üçün nahar və şam yeməyində daha az yeməklər yeyər və bu yolla da daha asan arıqlayarlar.

2011-ci ildə aparılan başqa bir tədqiqat zamanı məlum oldu ki, o insanlar ki, naharda bəziləri kartof, bəziləri toyuq və bəziləri də yumurta yeyiblər, yumurta yeyən insanlar daha çox toxluq hiss ediblər və yedikləri qidadan daha çox razı qalıblar. Yumurta yemək kartof yeməkdən daha çox insana toxluq hissi gətirər.

Lakin bunu nəzərə alaq ki, yumurta elə qidalardandır ki, onda həddi aşmaq olmaz. Çünki əks halda ürək xəstəlikləri üçün şərait yaranar və qanda xolesterinin səviyyəsi qalxar.

Ürək xəstələri və həmçinin diabet xəstələri gərək gün ərzində 200 milli qramdan çox yumurta yeməsinlər. Bir böyük yumurta 180 milliqram olduğu üçün gün ərzində bir yumurtadan çox yemək olmaz. Həmçinin bu xəstələr yağlı ətdən də ehtiyat etməlidirlər ki, xolesterini qaldırmasın.

# Uşaqları onlardan uzaq tutun

**Fast-fud haqqında nə qədər yazılsa da, zərərlərindən bəhs edilsə də, onlar azalmır ki, azalmır. Tez qidalar hazırlayan restoranların sayı günü-gündən artmaqdadır.**



Bəs niyə belə olur? Həkimlərin xəbərdarlıqlarına baxmayaraq, hər gün daha çox insan tez hazırlanan qidalara üstünlük verir.

Məsələ burasındadır ki, müasir həyatın ritmi insanlara imkan vermir ki, normal qidalansınlar. Gənclər isə yemək hazırlamağa meyl etmirlər. Əziyyət çəkməkdənsə, yolüstü fast-fud almağı seçirlər: tez, ucuz və hər zaman əl altında.

Tez hazırlanan qidalar uşaqların orqanizmlərində ciddi problemlərə səbəb olur. Bu məlumat Ohayo Universitetinin araşdırmasının nəticəsində ortaya çıxıb. Tədqiqatçılar 10-14 yaş arası 20 min uşaq arasında araşdırma aparıblar. Onların 10%-i hər gün fast-fud yeyib. Digərləri isə həftədə bir neçə dəfə belə qidalanıblar. Fast-fuddan hər gün istifadə edən uşaqların zehinləri digərlərindən zəif olub.

Bir porsiya tez hazırlanan qidanın tərkibində insanın gün ərzində qəbul edə biləcəyi sutkalıq qida norması var. Amma heç kim bir porsiya ilə kifayətlənmir.

Elə insanlar var ki, fast-fudla qidalanmanı tamamilə dayandırıblar. Onlar öz səhhətlərində ciddi problemlər aşkarladıqları üçün belə ediblər. Lakin belə adamların sayı azdır.

**milli.az**

# Sağlamlığımız üçün zərərli olan 11 adət



**Bəzən gün ərzində etdiyimiz bəzi işlər və bəzi adətlər bizim üçün çox zərərlidir. Zaman keçdikcə insan sağlamlığına böyük zərər vurar.**

**1. Yaş paltarları evdə qurutmaq**

Yaş paltarları evdə qurutmaq havada olan rütubəti artırar, daha çox həşəratların artması üçün şərait yaradar. Rütubətin çox olduğu mühitdə göbələklər artar və immun sistemini zəiflədər. Bəzən də tənəffüs yollarını zədələyib, astma xəstəliyi üçün şərait yaradar.

**2. Yeməkdən sonra fasilə vermədən dişləri sürtmək**

Bəziləri səhər yeməyini yeyəndən sonra dişlərini sürtərlər ki, nəfəsləri təravətli olsun. Bir çoxları gündə üç dəfə dişləri sürtməyə əməl edir və onu tərk etmirlər. Halbuki bu iş diş sağlamlığı üçün təhlükəlidir. Meyvə suları və meyvələrin bəzisi diş minasına ziyan vurar. Ona görə də dişləri əvvəlcə su ilə yaxalayıb yarım saatdan sonra sürtmək lazımdır. Dişləri səhər və nahar yeməklərindən sonra sürtmək yerinə saqqız çeynəyə bilərsiniz.

**3. Maşının pəncərəsini aşağı salıb sürmək**

Aparılan tədqiqatlar göstərir ki, əgər sürücü maşında olan zaman pəncərəni açıq qoyarsa, ekoloji çirklənməyə daha çox məruz qalar. Bu vərdiş qulaq sağlamlığı üçün də zərərlidir.

**4. Yeməyi plastik qabda mikro-sobada isitmək**

Plastik qabların tərkibində kimyəvi maddə vardır ki, hormonlarda dəyişiklik yaradar və insanı xərçəng təhlükəsi altında qoyar.

**5. Mobil telefonu yanınızda saxlamaq**

Bir çoxları hətta yatan zaman belə mesajlaşırlar və mobil telefonu başlarının altına qoyarlar. Bu vərdiş yuxunun ritmini pozar. Əgər rahat yatmaq istəyirsinizsə, yatmaqdan əvvəl mobil telefonla məşğul olmayın. Telefonu yataq otağınıza qoymayın.

**6. Yatmazdan əvvəl idman etmək**

Yatmazdan əvvəl idman etmək yaxşı fikir deyildir. Çünki yuxunu pozar və yorğunluq hissi gətirər. Ona görə də yatmazdan bir müddət əvvəl idman edin ki, yuxunuz aram olsun.

**7. Yüksək səslə musiqiyə qulaq asmaq**

Cavanların bir çoxu müsiqiyə yüksək səslə qulaq asmağı sevirlər. Lakin bu adət qulaq və eşitmə sağlamlığına ziyan vurar.

**8. Linzadan çox istifadə etmək**

Bəzi xanımlar eynək taxmağı sevmədiklərinə görə linzalardan istifadə edərlər. Lakin uzun müddət linzadan istifadə etmək göz üçün ziyanlıdır. Bu zaman göz yaşı az istehsal olar və gözlər quruyar.

**9. Özgə vərdişlərinə təqlid etmək**

Dostun insana təsiri çoxdur. Belə ki, əgər dostunuz kökdürsə, ehtmal verilir ki, siz də çəkinizi artırarsınız. Əgər dostunuzla çox vaxt keçirirsinizsə, imkan verməyin ki, onun pis adətləri sizə də keçsin. Əgər idmanı sevirsinizsə, siz onu idman etməyə təşviq edin.

**10. Dişləri təmizləməmək**

Bunu yadda saxlayın ki, dişləri sürtməklə təmiz olmaz. Diş fırçası dişlərin arasına girə bilmədiyi üçün, təmizləyə bilmir. Ona görə də diş sapından istifadə etmək lazımdır.

**11. Bədəninizin verdiyi siqnallara laqeyd olmaq**

Bel ağrısı, yorğunluq, mədə ağrısı əksər insanların hiss etdiyi ağrılardandır. Lakin bu siqnallar bir çox ciddi xəstəlikləri bizə xəbər vermək istəyə bilərlər. Gizli stress kimi.

## Etibarsız sayılır

I müalicə profilaktika fakültəsinin III kurs, $103^{b}$ qrup tələbəsi Abbasov Aqil Murtuz oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə profilaktika fakültəsinin III kurs, $107^{a}$ qrup tələbəsi Əliyeva Ləman Vəli qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, $880^{a}$ qrup tələbəsi Qənizadə Ayla İlyas qızının adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Xudiyeva Xanım Firudin qızına 1993- cü ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, $840^{b}$ qrup tələbəsi Hüseynova Gülsüm Bağır qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Pediatriya fakültəsinin VI kurs, $406^{a}$ qrup tələbəsi Zeynalov Nofəl Fizuli oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 207